1_Layout 1 15.11.2021 10:01 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 21 (611)

16 noyabr 2021-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# AZƏRBAYCANIN ƏSRƏ BƏRABƏR ZƏFƏR GÜNÜ

## *Prezident İlham Əliyev: “Düşmən bilsin ki, dəmir yumruq hələ də yerindədir”*

Vətən müharibəsində qazanılan Zəfərin ilk ildönümü ölkəmizdə böyük təntənə ilə qeyd edildi. Bu ötən bir il ərzində quruculuq-bərpa işlərinə böyük yer ayıran Azərbaycan regionu əhatə edən infrastruktur layihələrinin təşəbbüskarı olmaqla yanaşı, dayanıqlı sülhün təməllərini də atmağa çalışıb.

İşğaldan azad edilmiş torpaqlarımıza mütəmadi səfərlər edən Prezident İlham Əliyevin Qarabağa son səfəri də yalnız qələbənin birinci ilini qeyd etmək kimi protokol xarakterli deyildi, həm də səsləndirdiyi fikirlərin siyasi önəmi və aparılan genişmiqyaslı bərpa işlərinə töhfə sayılacaq infrastruktur layihələrinin gerçəkləşməsinin davamlılığı baxımından əhəmiyyətliydi.



Zəfər Günündən bir gün öncə - noyabrın 7-də Şuşaya yola düşən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ermənilərin dağıdıb viran qoyduqları torpaqlarımızdakı maddi-mədəni abidələrimizin yenidən qurulması, dirçəldilməsi istiqamətində görülən işlərlə tanış olublar.

Dövlətimizin başçısı və birinci xanım əvvəlcə Füzuli rayonunda Zəfər yolunun açılışında iştirak ediblər. Ardınca Daşaltı kəndində məscidin, Şuşa Radio-Televiziya yayım qülləsinin, Şuşa Rayon Mərkəzi Xəstəxanasının təməllərini qoyublar. Heydər Əliyev Fondu tərəfindən Aşağı Gövhər Ağa məscidində və Mehmandarovların malikanə kompleksində aparılan bərpa işləri ilə tanış olan dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva daha sonra VIII Qlobal Bakı Forumunun iştirakçıları ilə görüşüb, söhbət ediblər, Cıdır düzündə ağac əkiblər.

Yeri gəlmişkən, Prezident İlham Əliyevin Şuşada olarkən Türkiyənin milli müdafiə naziri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyətini də qəbul etməsi Şuşada Zəfər Günü ilə bağlı möhtəşəm atəşfəşanlığı həsrətlə izləyən ermənilərə həm də siyasi - hərbi mesaj oldu. Azərbaycanla Türkiyə arasında dünya miqyasında görünməmiş dostluq, qardaşlıq, tərəfdaşlıq və həmrəylik münasibətləri Şuşada bir daha dosta da, düşmənə də göstərildi.



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Şuşada hərbçilər qarşısında çıxışı isə bir çox aspektdən mühüm əhəmiyyət kəsb edirdi. Ən əsası dövlətimizin başçısı 44 gün ərzində bizi böyük qələbəyə aparan Vətən müharibəsindən Zəfərlə çıxmağımızı təmin edən iqtisadi, hərbi və diplomatik zəminin yaradılmasının önəmini yada saldı.

Ordu quruculuğu, hərbi potensialımızın möhkəmləndirilməsi Prezident İlham Əliyev üçün hər zaman prioritet olub, ölkəyə rəhbərlik etdiyi ötən dövrdə dövlət büdcəsinin əsas xərcləri məhz hərbi məqsədlər üçün nəzərdə tutulub. Bu illər ərzində güclü hərbi-texniki potensial yarandı, müasir silahlar, sursatlar, texnikalar ölkəmizə gətirildi və hərbçilərimiz bu texnikadan müharibədə bacarıqla istifadə etdilər.

“Biz iqtisadiyyatı gücləndirməli idik və yaxşı başa düşürdük ki, buna nail olmasaq, biz düşməni torpaqlarımızdan qova bilməyəcəyik. İlk növbədə, iqtisadi müstəqillik təmin edilməli idi”,- deyən Prezident İlham Əliyev təsdiq edir ki, iqtisadi müstəqilliyin əldə edilməsi ilə siyasi müstəqilliyimizi qazanmışıq. Yəni torpaqlarımızın azad edilməsi üçün əsas şərtlərdən biri vaxtında təmin edilib.

Qarabağla bağlı həqiqətlərin, işğalın, erməni vəhşiliyinin dünya ictimaiyyətinə çatdırılmasının, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsinin qələbənin qazanılmasında vacib rol oynadığını deyən ölkə başçısı revanşist qüvvələrə də xəbərdarlıq edib: “Biz öz ləyaqətimizi bərpa etdik. Bundan sonra müzəffər ölkə və qalib xalq kimi əbədi yaşayacağıq. Bundan sonra Qarabağda və Zəngəzurda əbədi yaşayacağıq. Əgər Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuzu görəcəkdir. Bizim yumruğumuz yerindədir”.

**DİN-in Mətbuat xidməti**

## AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN DAXİLİ QOŞUNLARININ ŞƏXSİ HEYƏTİNƏ

***Vətən müharibəsində əldə edilmiş şanlı Qələbənin birinci ildönümü – Zəfər Günü münasibətilə Sizi ürəkdən təbrik edirəm.***

***Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində əldə edilmiş qələbə Azərbaycanı qalib ölkəyə, xalqımızı qalib xalqa çevirdi. Milli birliyimizi, həmrəyliyimizi, ölkəmizin iqtisadi və hərbi qüdrətini bütün dünyaya göstərdi. Bu birlik dəmir yumruğa çevrilərək düşmənin başını əzdi, onu kapitulyasiya aktını imzalamağa məcbur etdi.***

***Dövlət başçısının əmri ilə əks-hücum əməliyyatlarına cəlb edilmiş Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları Azərbaycan Ordusu ilə birgə Cəbrayıl, Füzuli, Xocavənd, Qubadlı, Şuşa, Ağdam, Kəlbəcər və Laçın istiqamətlərində döyüşlərdə mərdlik, igidlik və cəsarət göstərdi, qarşıya qoyulmuş bütün tapşırıqları uğurla yerinə yetirdi. Biz Vətən torpağı uğrunda həlak olmuş qəhrəman şəhidlərimizin əziz xatirəsi qarşısında bu gün bir daha baş əyir, onlar ilə, həmçinin, sağlamlığını itirən fədakar döyüşçülərimizlə fəxr edirik.***

***Qoşunların Vətən müharibəsindəki döyüş yolu Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən yüksək qiymətləndirilərək yüzlərlə hərbçimiz orden və medallarla təltif edildi, 4 nəfər “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görüldü.***



***Bu əlamətdar və tarixi gündə Sizə, habelə şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinə möhkəm cansağlığı, xoşbəxtlik, ailə səadəti, Azərbaycan Respublikasına xidmətdə uğurlar arzulayıram!***

**Vilayət Eyvazov,**
**Azərbaycan Respublikasının daxili işlər naziri,**
**general-polkovnik**

## TÜRKİYƏDƏN ZƏFƏR TƏBRİKİ

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dövlətimizin başçısını Zəfər Günü münasibətilə təbrik edib, qardaş Azərbaycan xalqına sülh, əmin-amanlıq və firavanlıq arzularını çatdırıb. Türkiyə Prezidenti Vətən müharibəsində həlak olmuş şəhidlərimizə Allahdan rəhmət diləyib.

Dövlətimizin başçısı göstərilən diqqətə və təbrikə görə Türkiyə Prezidentinə minnətdarlığını bildirib.

Prezident İlham Əliyev bu Qələbənin qazanılmasında Türkiyənin və şəxsən Rəcəb Tayyib Ərdoğanın dəstəyini bir daha yüksək qiymətləndirərək, xüsusi olaraq vurğulayıb ki, məhz müharibənin ilk günlərindən Türkiyə Prezidentinin qətiyyətli mövqeyi və bəyanatları bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil, Türkiyə onun yanındadır. Bütün bunlar xalqımıza və ordumuza böyük mənəvi dəstək oldu.

Dövlət başçıları Qələbənin Azərbaycan-Türkiyə qardaşlığı və birliyinin növbəti bir parlaq səhifəsi olduğunu qeyd ediblər.

Telefon söhbəti zamanı ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin gələcəkdə də bütün sahələrdə uğurla inkişaf edəcəyinə, Azərbaycan ilə Türkiyənin daim bir-birinin yanında olacaqlarına əminlik ifadə edilib.

2 -2_Layout 1 15.11.2021 11:02 Page 1



# BAŞ İDARƏDƏ QƏBUL

Noyabrın 1-də daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunların Baş İdarəsində Türkiyə Respublikasının Azərbaycan Respublikasındakı Silahlı Qüvvələr attaşesi general-mayor Zekeriya Yalçını qəbul edib.

Qonağı səmimi salamlayan general-leytenant Ş.Məmmədov Azərbaycan Respublikası və Türkiyə Respublikası arasındakı münasibətlərin dərin tarixi köklərə malik olduğunu bildirib. O, hazırda ölkələrimiz arasında mövcud olan çoxşaxəli əlaqələrin yüksək inkişafını vurğulayaraq, Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq münasibətlərinin də uğurla inkişaf etməsindən danışıb.



Ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın mövcudluğunu müsbət hal kimi qiymətləndirən daxili qoşunların komandanı Türkiyə Respublikasının Silahlı Qüvvələri, o cümlədən, Jandarm Baş Komandanlığı ilə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında qarşılıqlı dostluq və əməkdaşlıq münasibətlərinin bundan sonra da müvəffəqiyyətlə davam edəcəyinə əminliyini ifadə edib. Xüsusilə Türkiyə Respublikası Daxili İşlər Nazirliyinin Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan zabitlərinin təlim-tədris prosesinin inkişaf etdirilməsindəki önəmli fəaliyyətləri qeyd olunub.

Səmimi qəbul üçün təşəkkürünü bildirən general-mayor Z.Yalçın daxili qoşunlar komandanını 44 günlük Vətən müharibəsində qazanılmış möhtəşəm qələbə münasibətilə təbrik edərək, bu qələbənin tarixin səhifələrinə qızıl hərflərlə həkk olunacağını və yaddaşlardan silinməyəcəyini bildirib. Qonaq, həmçinin, ikitərəfli münasibətlərin ölkələrin gələcək inkişafına böyük təkan verəcəyini vurğulayıb. O, öz növbəsində, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə Türkiyə Respublikasının bir sıra qurumları arasında qarşılıqlı faydalı əməkdaşlıq münasibətlərinin möhkəmləndirilməsi üçün lazımi dəstək verəcəyini də əlavə edib.

Qarşılıqlı fikir mübadiləsi zəminində keçən görüşdə qeyd olunub ki, iki ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da uğurla davam edəcək.

Görüşün sonunda xatirə şəkli çəkdirilib.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

# "ÇOX XOŞBƏXTİK Kİ, VƏTƏN TORPAĞI UĞRUNDA DÖYÜŞMƏK BİZƏ DƏ NƏSİB OLDU"



"İlk növbədə, Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarına etimad göstərərək düşmənə qarşı əks-hücum əməliyyatlarında iştirak etməyimiz barədə əmr verdiyinizə görə Sizə dərin minnətdarlığımızı bildirirəm. Çox xoşbəxtik ki, Vətən torpağı uğrunda döyüşmək bizə də nəsib oldu".

Bu fikirləri Daxili Qoşunların xüsusi təyinatlı dəstəsinin komandiri, Vətən Müharibəsi Qəhrəmanı polkovnik Zəfər Yusibov Zəfər Günü münasibətilə Şuşada Prezident İlham Əliyevin iştirakı ilə keçirilən tədbirdə çıxışı zamanı deyib.

O bildirib: "Döyüş əmrinizi bütün hərbi qulluqçular, o cümlədən, Daxili Qoşunların şəxsi heyəti səbirsizliklə gözləyirdilər. Bu əmriniz çox qürurverici idi. Bizə böyük sevinc və ruh yüksəkliyi bəxş etdi. İştirak etdiyimiz döyüşlərdə Sizin - Müzəffər Ali Baş Komandanın əsgər və zabitlərə hədsiz mənəvi güc verən dəstəyini daim hiss edirdik. Bu dəstək döyüş ruhumuzu qat-qat artırır, bizi daim irəliyə səsləyirdi. Məhz bu güc sayəsində şəhər və kəndlərimiz bir-birinin ardınca düşməndən azad edilirdi. Müharibə dövründə bir amalımız, bir məqsədimiz var idi: qısa müddət ərzində düşmənə sarsıdıcı zərbə endirib onu məhv etmək, torpaqlarımızı işğaldan qurtarmaq və cənab Ali Baş Komandan, Sizin etibarınızı doğrultmaq, elan edəcəyiniz Qələbə Gününü, Qələbə müjdəsini canımız bahasına olsa belə, anbaan yaxınlaşdırmaq. Belə də oldu. Qarabağ Zəfəri Azərbaycanı qalib ölkəyə, xalqımızı qalib xalqa çevirdi. Onun Qələbə əzmini, milli birliyimizi, həmrəyliyimizi, ölkəmizin iqtisadi və hərbi qüdrətini bütün dünyaya göstərdi. Bu birlik "Dəmir yumruğa" çevrilərək düşmənin başını əzdi, onu kapitulyasiya aktını imzalamağa məcbur etdi. Vətən müharibəsi Azərbaycanın tarixinə şanlı bir salnamə kimi əbədi həkk olundu".

"Cənab Ali Baş Komandan, Sizin sərkərdəliyinizlə 44 günlük müharibədə tariximizə qızıl hərflərlə yazılmış şanlı Qələbədə iştirakımdan mən və silahdaşlarım şərəf və qürur duyuruq. Qələbəmizin zirvəsi sözsüz ki, Şuşanın azad edilməsi oldu. 8 Noyabr - Zəfər Günü olmaqla bərabər, həm də ədalətin bərqərar edildiyi gün idi. Biz nahaqdan axıdılan qanların və şəhidlərimizin qisasını düşməndən döyüş meydanlarında artıqlaması ilə aldıq. Buna görə mənəvi rahatlıq tapdıq. Biz bu müharibəni döyüşçü yoldaşlarımızın və şəhidlərimizin fədakarlığı, vətənpərvərliyi, şücaəti və döyüş əzmi hesabına qazandıq. Bu mənada, Vətən, torpaq uğrunda qurban gedən, sağlamlığını itirən döyüşçü yoldaşlarımız ən yüksək hörmətə, ehtirama layiqdirlər. Şəhidlərimiz həmişə bizim qəlbimizdə yaşayacaq, onlar heç vaxt unudulmayacaq.

Cənab Ali Baş Komandan, Qələbə münasibətilə minlərlə qəhrəman hərbçimizi dövlət mükafatları, o cümlədən, orden və medallarla təltif etməyiniz hər birimizi şərəfləndirir. Məruzə edirəm ki, komandiri olduğum xüsusi təyinatlılar Cəbrayıl, Füzuli, Xocavənd, Qubadlı, Şuşa, Ağdam, Kəlbəcər və Laçın rayonları istiqamətlərində döyüşlər zamanı qarşıya qoyulmuş bütün tapşırıqları var qüvvəsi ilə yerinə yetirməyə çalışırdılar. Siz Daxili Qoşunların xüsusi təyinatlılarının da Vətən müharibəsindəki döyüş yolunu yüksək qiymətləndirmisiniz. O cümlədən, məni "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görmüsünüz.

Cənab Ali Baş Komandan, icazə verin, bu ali diqqətinizə görə Sizə dərin minnətdarlığımızı bildirim. Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçuları müsəlləh əsgərləriniz olaraq bundan sonra da Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, xalqımızın və dövlətimizin təhlükəsizliyi naminə canlarından keçməyə, hər bir əmrinizi yerinə yetirməyə hazırdırlar" - deyə polkovnik Z.Yusibov vurğulayıb.

**"AZƏRTAC"-ın materialları əsasında hazırlanıb**

# ÖRNƏK ÖMÜR YAŞADILAR

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçularının paytaxtda və yerlərdə anım mərasimləri keçirilir.

Şirvan şəhərində şəhid hərbi qulluqçu baş əsgər Kamran Fərəcovun ildönümü mərasimində Daxili İşlər Nazirliyinin, eləcə də Şirvan Şəhər Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları və rayon ictimaiyyəti iştirak ediblər.



Şəhidlər xiyabanında baş tutan mərasimdə əvvəlcə bütün şəhidlərin əziz xatirələrinə ehtiram əlaməti olaraq "Şəhid Anası" abidəsinin önünə əklil qoyulub. Sonra şəhid K.Fərəcovun məzarı ziyarət olunub, önünə tər çiçəklər düzülüb, ruhuna dualar oxunub. Çıxış edənlər igid oğullarımızın döyüş meydanında göstərdikləri qəhrəmanlıqlarından, rəşadətlərindən, eyni zamanda şanlı tarixi qələbəmizdən qürurla danışıblar.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə baş əsgər Kamran Fərəcov ölümündən sonra "Vətən uğrunda" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

Qax rayonunda da Vətən müharibəsi şəhidinin anım mərasimi keçirilib. Şəhid hərbi qulluqçu çavuş Nəzir Osmanovun məzarını ziyarət edən Daxili İşlər Nazirliyinin, Rayon İcra Hakimiyyətinin və Rayon Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, eləcə də ictimaiyyət nümayəndələri Vətən uğrunda canlarından keçənlərin əziz xatirələrinin daim qəlblərdə yaşayacağını, onların döyüş meydanında göstərdikləri şücaətin gənc nəsillər üçün örnək olduğunu bildiriblər.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə çavuş Nəzir Osmanov ölümündən sonra "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Vətən müharibəsində şəhidlik zirvəsinə ucalmış Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Biləsuvar və Cəbrayıl rayonlarından olan beş nəfər hərbi qulluqçusunun - Təhmasib Mustafayevin, Elvin Məmmədovun, Ruslan Qurbanovun, Asif Talıblının və Orxan Mirzəyevin medalları ailə üzvlərinə təqdim olunub.

Biləsuvar Rayon Polis Şöbəsində təşkil olunan tədbirdə torpaqlarımızın müdafiəsi uğrunda şəhid olmuş hərbi qulluqçuların əziz xatirələri anılıb, keçdikləri şərəfli döyüş yolu xatırlanıb.

Şəhid ailələri onlara göstərilən diqqət və qayğıya görə ölkə, eləcə də Daxili İşlər Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını ifadə ediblər.

**DİN-in Mətbuat xidməti**

# XATİRƏLƏRDƏ YAŞAYACAQ

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının xüsusi təyinatlı dəstəsinin giziri Sərxan Abdullayevin 33 yaşının tamam olması münasibətilə doğulduğu Qazax rayonunda xatirəsi əbədiləşdirilib. Qazax Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən şəhidin adına bulaq kompleksi inşa etdirilib. Tədbirdə RPŞ-nin əməkdaşları ilə bərabər, Rayon İcra Hakimiyyətinin, yerli idarəetmə orqanlarının nümayəndələri, kənd sakinləri və şəhidin döyüş yoldaşları iştirak ediblər.




Tədbirdə çıxış edən RPŞ-nin rəisi, polis polkovniki Sənan Əsədov düşmənin torpaqlarımıza təcavüz etdiyi ilk günlərdən daxili işlər orqanları əməkdaşlarının silaha sarıldığını, nizami qüvvə kimi məhz polisin və Daxili Qoşunların hərbi qulluqçularının düşmənə layiqli cavab verdiyini bildirib.

Qeyd olunub ki, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnən 44 günlük Vətən müharibəsində də Daxili Qoşunların hərbi qulluqçuları əsl qəhrəmanlıq nümunələri göstərərək Vətən tarixinə adlarını əbədi həkk ediblər. Onlardan 66 nəfər şəhidlik zirvəsinə ucalıb, 346 nəfər yaralanıb, 4 nəfər isə (1 nəfər ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb.

Şəhidin atası Elxan Abdullayev ölkə və Daxili İşlər Nazirliyi, eləcə də rayon rəhbərliyi tərəfindən onlara göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib, şəhidlərimizin xatirəsinə olan hörmət və ehtiramı yüksək qiymətləndirib.

**Eşqin Qasımov**
**polis baş leytenantı**

# ƏBƏDİYYƏTƏ QOVUŞANLAR

## *Şəhidlərimizin məzarları ziyarət olunub, ruhlarına dualar oxunub*

**Vətən müharibəsində şəhidlik zirvəsinə ucalan Daxili İşlər Nazirliyi Daxili Qoşunların hərbi qulluqçularının paytaxtda və yerlərdə anım mərasimləri keçirilir.**

Şəhid hərbi qulluqçu, mayor Şixamir Qaflanovun ildönümü münasibətilə keçirilən mərasimdə Daxili İşlər Nazirliyinin təmsilçiləri, Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, rayon ictimaiyyəti və döyüş yoldaşları iştirak ediblər.

Əvvəlcə rayonun Üçüncü Tala kəndində şəhidin məzarı ziyarət olunub, önünə gül dəstələri düzülüb. Çıxış edənlər Ş.Qaflanovun keçdiyi şərəfli ömür yolundan, döyüşlərdə göstərdiyi qəhrəmanlığından danışıb, parlaq xatirəsinin qəlblərdə əbədi yaşayacağını bildiriblər.

Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə mayor Ş.Qaflanov ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adına layiq görülüb, "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Qax rayonunda da Vətən müharibəsi şəhidinin anım mərasimi keçirilib. Daxili İşlər Nazirliyinin, Rayon İcra Hakimiyyətinin və Rayon Polis Şöbəsinin əməkdaşları, Daxili Qoşunların hərbi qulluqçuları, eləcə də ictimaiyyət nümayəndələri şəhid hərbi qulluqçu, baş çavuş Emil Fətəliyevin məzarını ziyarət edərək önünə əklil qoyub, ruhuna dualar oxuyublar. Anım mərasimində onun şərəfli ömür yolundan, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda gedən döyüşlərdəki şücaətindən bəhs edilib.






Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə baş çavuş Emil Fətəliyev ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.

**DİN-in Mətbuat xidməti**

3_Layout 1 15.11.2021 10:04 Page 1



*Şəhidlərimiz*

# “VƏTƏNİ MƏN QORUMAYIM, BƏS KİM QORUSUN?”

44 günlük Vətən müharibəsində xalqımızın dəmir yumruq tək birləşərək qazandığı şanlı qələbə hərb tariximizin ən parlaq səhifələrindəndir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin vurğuladığı kimi: “Torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına işğaldan azad edilmişdir”.

Torpaqlarımızın azadlığı uğrunda son damla qanınadək döyüşərək şəhidlik zirvəsinə ucalmış cəsur silahdaşlarımızdan biri də baş çavuş Məmmədov Sahib Yaşar oğludur.

Baş çavuş Sahib Məmmədov 1989-cu il noyabrın 13-də Naxçıvan Muxtar Respublikası Culfa rayonunun Yaycı kəndində anadan olub. Orta təhsilini böyüyüb boya-başa çatdığı Yaycı kəndindəki Tağı Qasımoğlu adına 1 saylı orta məktəbdə alıb. Hələ orta məktəbin ikinci sinfində oxuyarkən idmanın cüdo növü ilə məşğul olan Sahib bu sahədə qazandığı uğurlarına görə müxtəlif dərəcəli diplom və medallarla təltif edilib.

Müddətli həqiqi hərbi xidmətini 2008-ci ilin yanvar ayından 2009-cu ilin iyul ayınadək Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində keçib. Tərxis olunduqdan sonra bir müddət mülki işdə çalışsa da, hərbçi peşəsinə olan böyük marağı səbəbindən hərbi xidmətə qayıtmağa qərar verib. Beləliklə, 2011-ci ilin noyabr ayında Daxili Qoşunların 16073 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunan Sahib Vətənə olan borcunu yerinə yetirməyə başlayıb. 2012-ci ilin yanvar ayından etibarən hərbi hissənin “Bəbir” şərti adını daşıyan xüsusi təyinatlı dəstəsində xidmətini davam etdirən baş çavuş S.Məmmədov əvvəlcə atəş təminatı qrupunda 60 mm-lik minaatan yarımqrupunda heyət nəfəri, döyüş təminatı qrupunda təminat yarımqrupunun komandiri, atəş təminatı qrupunda 60 mm-lik minaatan yarımqrupunun komandiri vəzifələrində, 2017-ci ilin yanvar ayından şəhidlik məqamına yüksəldiyi günədək isə xüsusi həmlə qrupunda yarımqrup komandiri kimi xidməti-vəzifə borcunu ləyaqətlə yerinə yetirib.

Nümunəvi yarımqrup komandiri kimi bilik və bacarığı sayəsində böyük rəislərin etimadını və tabeliyində olan şəxsi heyətin hörmətini qazanmağı bacarıb. Həmçinin, xidmət etdiyi dövrdə yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən cəsur hər-



bi qulluqçumuz 3-cü dərəcəli “Qüsursuz xidmətə görə” medalı ilə təltif edilib, eləcə də hərbi hissənin və dəstənin komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

16073 saylı hərbi hissədə “Bəbir” şərti adını daşıyan xüsusi təyinatlı dəstə komandirinin tərbiyə işləri üzrə müavini, Vətən müharibəsi iştirakçısı kapitan Əhməd İsmayılov (Vətən müharibəsi zamanı Cəbrayıl rayonu ərazisində gedən döyüşdə yaralanıb) vaxtilə birgə xidmət etdiyi yarımqrup komandirinin nümunəvi xidmətini bu gün də fəxr hissi ilə qeyd edir: “44 günlük Vətən müharibəsində dəstəmizin şəhid olmuş cəsur hərbi qulluqçularından biri də yarımqrup komandiri baş çavuş Sahib Məmmədovdur.

Öncə onu qeyd edim ki, Sahib öz üzərində çalışan bacarıqlı yarımqrup komandiri kimi qarşıya qoyulan bütün tapşırıqları hər zaman vicdanla yerinə yetirib. Vətənpərvərliyi, cəsurluğu, bir sözlə, müsbət xarakterik xüsusiyyətləri ilə tabeliyindəki şəxsi heyətə nümunə olub. Tələbkarlığı ilə yanaşı, onlardan qayğısını da əsirgəməyib. Ən əsası da bir yoldaş kimi olduqca mehriban, deyib-gülən, zarafatcıl olmasına rəğmən, hərbi xidmətə olan ciddi münasibətilə fərqlənib. Məhz buna görə də nümunəvi hərbi qulluqçu kimi kollektivin rəğbətini qazanmağı bacarıb”.

Vətən müharibəsi başlayanda baş çavuş S.Məmmədov böyük qürur və düşmənə sonsuz nifrət hissi ilə döyüşlərə qatılıb. Cəbrayıl, Füzuli və Xocavənd rayonları istiqamətlərində yerləşən bir çox yaşayış məntəqəsinin və ayrı-ayrı strateji yüksəkliklərin azad olunması uğrunda gedən döyüşlərdə göstərdiyi qəhrəmanlıq nümunələri ilə hərbi anda sadiq əsl xüsusi təyinatlı olduğunu bir daha sübut edib.

**19 oktyabr 2020-ci il...** Füzuli-Xocavənd istiqamətində gedən döyüşlərdən biri Sahibin son döyüşü oldu. Bu döyüşdə dəstə komandiri mayor Şixamir Qaflanovun rəhbərliyi altında tərkibində Sahibin də vuruşduğu cəsur xüsusi təyinatlılardan ibarət qrupun şəxsi heyəti tərəfindən ermənilərin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilərək, mühüm mövqeləri ələ keçirilir. Lakin acı məğlubiyyətlə barışmaq istəməyən düşmən digər yüksəkliklərdə yerləşən postlarından itirdiyi mövqeləri snayperlərdən, iriçaplı silahlardan və minaatanlardan güclü atəşə tutur. Şiddətli döyüşün gedişində düşmənin atdığı minaatan mərmisinin yaxınlığında partlaması nəticəsində aldığı ağır qəlpə, həmçinin, güllə yaralanmalarından baş çavuş Sahib Məmmədov gözlərini əbədi yumaraq şəhidlik zirvəsinə yüksəlir.

Bu döyüşdə Sahiblə birgə Daxili Qoşunların 16073 saylı hərbi hissəsinin digər 3 nəfər cəsur hərbi qulluqçusu – mayor Şixamir Qaflanov, baş çavuş Surxay Mehdiyev, çavuş Sənan Ələsgərzadə, həmçinin, Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsinin 8 nəfər xüsusi təyinatlısı son damla qanlarınadək vuruşaraq şəhid oldular. “Bəbir” şərti adını daşıyan xüsusi təyinatlı dəstənin digər hərbi qulluqçuları - baş çavuşlar: Toğrul Ağayev, İlqar Əhmədov, Elçin Məcidov, Tahir Əliyev, çavuşlar: Gözəl İmanov, Araz Hüseynov, İbrahim Kutulasov, Vüqar Hüseynli, Sənan Qənbərov, Sahil Həsənov, Məhəmməd Atayev və Orxan Abdullayev yaralanıblar.

Baş çavuş Sahib Məmmədov 2020-ci il oktyabrın 24-də Yaycı kəndinin qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli və 22 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş Məmmədov Sahib Yaşar oğlu (ölümündən sonra) “Vətən uğrunda” və “Cəbrayılın azad olunmasına görə” medalları ilə təltif edilib.



İbrahim Hüseynovun müəllifi olduğu “Qələbə şəhidləri” adlı kitabın 2-ci cildində, Manya Səxavətqızının müəllifi olduğu “Vətən fədailəri - Naxçıvan şəhidləri” adlı kitabın 1-ci cildində və “Bakı-Xəbər” qəzetinin 13-15 mart 2021-ci il tarixli sayında dərc edilmiş “Müqəddəs eşqin sahibi”, həmçinin, Alim Ağayevin “Arazın səsi” qəzetinin 19 fevral 2021-ci il tarixli sayında çap olunmuş “Ömür yolu ilə vətənpərvərlik aşılayan şəhidim” başlıqlı məqalələrdə igid xüsusi təyinatlımızın həyat və döyüş yolu geniş işıqlandırılıb.

Qeyd edək ki, Sahib Məmmədovlar ailəsində böyüyüb boya-başa çatmış dörd övladdan biri olub. Atası Yaşar Məmmədov 2013-cü ildə, qardaşı Ümid isə 2016-cı ildə vəfat ediblər. Anası Çiçək xanımın qeyd etdiyi kimi, ailə başçısı və kiçik övladı vəfat etdikdən sonra Sahib onun yeganə ümidi və təsəllisi, bacıları Aysel və Günelin isə tək arxa-dayağı idi: “Mənim balam çox mehriban, qeyrətli, vətənpərvər oğul idi. Eşitdiyimə görə, müharibə başlayanda dəstə komandiri ona deyib ki, sən getmə, atan və qardaşın dünyalarını dəyişib, xəstə anan, üç övladın var. Müharibədir, nə olacağını bilmək olmaz. Onları yalnız qoyma. Ancaq o, etiraz edib, “Yox, mən getməliyəm! Vətəni mən qorumayım, bəs kim qorusun?” - deyə etirazını bildiribmiş. Mən övladımla qürur duyuram, onunla fəxr edirəm. Düzdür, bir ana olaraq onun yoxluğuna görə çox əzab çəkirəm. Çünki Sahib ailəmizin yeganə arxa-dayağı idi. Amma bir vətəndaş kimi yenə də deyirəm: Vətən sağ olsun! Çünki Sahib kimi oğullar xalqımızın fəxridirlər”.

2010-cu il oktyabrın 29-da Gülnar xanımla ailə həyatı qurmuş şəhid hərbi qulluqçumuzun Ayla, Məryəm və Rübabə adlı övladları yadigar qalıb.

“Şəhidin həyat yoldaşı olaraq, onun haqqında çox sözləri qeyd etmək olar” - deyən Gülnar xanım bildirdi ki, Sahib ailəsinə, işinə bağlı çox məsuliyyətli və qayğıkeş bir insan olub: “Biz, sözün əsl mənasında, Sahibsiz qaldıq. Üç qızına hər zaman “mələklərim” deyən ata, ailəsini hər şeydən üstün tutan bir həyat yoldaşı idi. Mənə çox sual verirlər ki, “Sahib niyə döyüşə getdi, getməyə bilərdi”. Amma onlar bilmirlər ki, Sahib elə məhz ailəsini və Vətənini sevdiyi üçün döyüşlərə qatıldı. Mən ona getmə deyəndə, Sahibin cavabı: “Mən qardaşlarımı tək buraxa bilmərəm. Ailəmi elə birinci növbədə mən özüm qorumalıyam” – oldu.

Döyüşdə olduğu müddətdə qısa da olsa danışırdıq. Hər dəfəsində də sözü ancaq “Övladlarımın atası da, anası da sənsən. Məndən nigaran olmayın. Özünüzdən muğayat olun” – olardı.

Sahibi on dörd il idi tanımışam. Özünü yox, ancaq ailəsini düşünən bir insan olub. Sahibsiz həyat çox çətindir. Lakin onun ailəsinə olan sonsuz sevgisi bizi hər zaman güclü edir”.

Sonda onu qeyd etmək istəyirəm ki, Vətən uğrunda canını qurban verən Sahib kimi oğullarımızın əziz xatirəsi hər birimizin qəlbində əbədi olaraq yaşayacaqdır.

**Allah rəhmət eləsin!**

**mayor Anar Əhmədov**

*Qazilərimiz*

# VƏTƏN MÜHARİBƏSİNİN SONUNCU GÜNÜ DAŞALTIDA YARALANDI...

Bu gün təqvimdə hər bir soydaşımızda qürur hissi doğuran 8 Noyabr - Zəfər Günü var. Buna görə şəhidlərimizə və qazilərimizə borcluyuq.

Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Vətən müharibəsində iştirak etmiş hərbi qulluqçuları ilə tanış olduqda vətənpərvər və mübariz bir gənc nəslin formalaşdığını görürük. Müharibənin od-alovundan keçmiş bu hərbi qulluqçuların döyüş xatirələri, silahdaşlarının onlar barədə fikirləri çox maraqlı və tarixi yaddaş üçün qiymətlidir.

Vətən müharibəsi qazisi, istefada olan əsgər Səfərli Xəyal Mübariz oğlu ilə Xırdalan şəhərindəki müvəqqəti qaldığı mənzildə görüşərək söhbət etdim. Bu gəncin keçdiyi döyüş sınağı onun həyatında silinməz iz qoyub. Bununla yanaşı, taleyinə digər çətin məqamlarla üzləşmək də yazılıb. O, 1995-ci il avqustun 17-də Tərtər rayonunun Cəmilli kəndində anadan olub. Atası əslən bu rayondandır. Qeyd edim ki, tərtərlilər Qarabağ müharibəsi tarixində düşmənin qarşısında həmişə möhkəm dayanıblar. Xəyal 3 yaşınadək orada yaşayıb. Sonra ailəsi Sumqayıtın Corat qəsəbəsinə köçüb. Əslən buradan olan anası Xuraman xanım 2011-ci ildə ağır xəstəlikdən vəfat edib.

Xəyal Coratdakı 7 saylı tam orta məktəbi bitirib. Məktəbdə oxuduğu illərdə idmana maraq göstərib, kikboksinq, boks və qismən də cüdo ilə məşğul olub. Ölkədaxili yarışlara və beynəlxalq turnirlərə qatılaraq qalib yerləri tutub, əksər halda birincilik qazanıb, müvafiq medal və diplomlarla mükafatlandırılıb.

Respublikanın idman ictimaiyyəti tərəfindən tanınan, hörmət bəslənilən, bir sıra fəxri adlara və titullara layiq görülən, onun məşqçiləri olmuş Dağbəyi Əhmədov və Sevindik Mehdiyevə zəng edərək Xəyal barədə fikirlərini öyrəndim. Dağbəyi müəllim həm də qazidir. Onların sözlərinə görə, Xəyal məşqçilərinin hörmətini saxlayan, daim öz üzərində çalışan, iradəli və qətiyyətli, qələbə əzmli, bacarıqlı idmançı olub. İdmanı çox sevən, məşqlərdə öz məharətini artıran, yarışlarda gərəkli təcrübə toplayan gəncin idmançı kimi gələcək fəaliyyətindən böyük gözləntilər vardı. Özünün də qarşısına qoyduğu əsas məqsədlərdən biri həyatını idmana həsr etmək, peşəkarlıq baxımından yeni zirvələrə ucalmaq idi.

2013-cü ilin oktyabr ayında Xəyal müddətli həqiqi hərbi xidmətə çağırılıb. Müdafiə Nazirliyinin “N” saylı hərbi hissələrində hərbi xidmət keçib. Füzuli rayonu ərazisində düşmənlə təmas xəttində hərbi xidmətdə olub. Hava hücumundan müdafiə bölməsində atıcı-tuşlayıcı vəzifəsini yerinə yetirib. 2015-ci ilin aprel ayında hərbi xidmətdən tərxis olunduqdan sonra bir müddət müxtəlif sahələrdə işləyib, idman fəaliyyətini davam etdirib. Ancaq hərbçi peşəsinə rəğbəti səbəbindən bu şərəfli yolu getməyi qərar verib. Televiziya kanallarından birində Daxili Qoşunlara müddətdən artıq həqiqi hərbi xidmətə qəbulla bağlı elanı gördükdən sonra heç bir tərəddüdsüz müraciət edib.

2020-ci ilin mart ayının 23-dən etibarən Xəyal Daxili Qoşunların 17071 saylı hərbi hissəsinə əsgər rütbəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. Hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində atıcı vəzifəsinə təyin edilib. Dəstənin təyinatından irəli gələn vəzifələrin yerinə yetirilməsində qarşıya qoyulan tapşırıqların icrasına məsuliyyətlə yanaşıb. İctimai qaydanın mühafizəsi, pandemiya ilə əlaqədar karantin-rejim tədbirlərinin təmin edilməsi üzrə xidmətə cəlb olunub. Nizam-intizamlı hərbi qulluqçu kimi hərbi kollektivdə hörmət qazanıb.

2020-ci il sentyabrın 27-də ön cəbhədə erməni işğalçılarına qarşı genişmiqyaslı əks-hücum başladıqda Daxili Qoşunların şəxsi heyəti qarşısında döyüş tapşırıqları qoyuldu. Həyəcan siqnalı ilə qaldırılaraq 16077 saylı hərbi hissəyə göndərilən 17071 saylı hərbi hissənin bir qrup şəxsi heyətinin tərkibində Xəyal da vardı. 16077 saylı hərbi hissədə qoşunların digər hərbi hissələrindən də şəxsi heyət cəmləşmişdi. Burada döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazırlıq görülüb.

Müharibənin ilk günlərindən düşmən təmas xəttinə həm yaxın, həm də uzaq şəhər və rayonlarımızı artilleriya vasitələrindən



atəşə tuturdu. Raket zərbələrinə məruz qalan şəhərlərimizdən biri də Mingəçevir idi. 17071 saylı hərbi hissənin bir qrup şəxsi heyəti həmin vaxt 16077 saylı hərbi hissədən Mingəçevirə göndərilib. Mingəçevirdə təhlükəsizliyin təmin olunması üzrə xidmət aparıblar. Oktyabr ayının ortalarında isə şəhərdən çıxarılaraq döyüş əməliyyatlarının getdiyi bölgəyə gəliblər.

Əsgər X.Səfərlinin döyüş yolu Füzuli, Xocavənd rayonları, Laçın dəhlizi, Şuşa şəhəri istiqamətlərində keçib. Bu istiqamətlərdə torpaqlarımızın işğaldan azad edilməsi uğrunda müxtəlif döyüş tapşırıqlarını yerinə yetirib. Belə ki, təcavüzkardan təmizlənən ərazilərin, yeni mövqelərimizin müdafiəsi, komandanlığın yerləşdiyi məntəqənin mühafizəsi, döyüşən bölmələrə sursat və ərzağın çatdırılması, şəhidlərin nəşinin çıxarılması və yaralıların təxliyyəsi zamanı Xəyal cəsurluq göstərib, mətin döyüşçü kimi fərqlənib. Çətin keçilən relyefə malik ərazilərdə, əlverişsiz hava şəraitində, atəş altında, bəzən ac-susuz, gecə belə yuxusuz qalaraq, döyüş tapşırıqlarının icrasını təmin etmək üçün irəliləyiblər.

Vətən müharibəsi iştirakçısı, 17071 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində sürücü-atıcı, müddətdən artıq həqiqi hərbi xidmətdə olan əsgər İsmayıl Aslanlı məlumat verdi ki, Xəyal onun yaxın yoldaşlarından biridir. Eyni hərbi hissədə xidmət ediblər, ön cəbhədə birgə döyüşüblər. İsmayıl danışdı ki, müharibədə döyüşçü yoldaşları Xəyala etibarlı silahdaş kimi güvəniblər, o, düşmənə qarşı cəsarətlə vuruşub, yaralılara yardım etməyə can atıb, öndəki qrupların təchizatı üçün bütün maneələri aşmağı bacarıb.

Hərbi qulluqçumuzun dediyinə görə, müharibə vaxtı Füzuli rayonunda olarkən, ağır bir döyüşdən qabaq onlar bir-birinə vəsiyyətlərini söyləyiblər. İki yoldaşın döyüş yolu Daşaltı kəndində ayrılıb. Hər ikisi müharibədə yaralanıb və qalibiyyət sevincini ön cəbhədə yaşayıblar.

Vətən müharibəsi iştirakçısı, 17071 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsində atıcı, müddətdən artıq həqiqi hərbi xidmətdə olan əsgər Elşad Məmmədov bildirdi ki, Xəyalla birgə təlimlərdə iştirak ediblər, ayrı-ayrı rayonların ərazilərində xidmətə cəlb olunublar. Həmçinin, Vətən müharibəsi zamanı bir sıra istiqamətlərdə birgə döyüş yolu keçiblər. Xəyalın vətənpərvər, döyüşkən, ləyaqətli hərbi qulluqçu olduğunu dedi. Döyüş sınağında onun təqdirəlayiq fərdi keyfiyyətlərinin özünü büruzə verdiyini diqqətə çatdırdı. Təchizat həyata keçirən qrupun tərkibində Xəyal və digər döyüşçülər Laçın dəhlizi və Şuşa ətrafında vuruşan qüvvələrimizin təminatında fasilə yaranmaması üçün əsl fədakarlıq göstəriblər.

Elşad Xəyalın və Müdafiə Nazirliyinin bir nəfər hərbi qulluqçusunun müharibənin sonunda Daşaltı kəndində, düşmənin artilleriya atəşi nəticəsində yaralandıqlarını dedi.

Vətən müharibəsi qazisi, 17071 saylı hərbi hissədə müddətdən artıq həqiqi hərbi xidmət keçmiş, ehtiyatda olan əsgər Samiq Hüseynovun da döyüşlərlə bağlı maraqlı xatirələri var. Müharibədə gördüyü döyüşçü qardaşlığının onlara güc verdiyini vurğuladı. O, Xəyalın xeyli yaralının həyatını xilas etdiyini söylədi. Şuşa-Laçın yolunda minaatan mərmisinin qəlpələrindən yaralanan Samiqi atəş altındakı ərazidən Xəyal çıxararaq müvəqqəti sığınacaq yerinə aparıb, ona yardım və bir neçə gün qulluq göstərib, sonra isə təxliyyəsini təşkil edib.

Noyabrın 8-də Xəyal bir qrup döyüşçü ilə Şuşaya yaxın Daşaltı kəndində yerləşib. Burada yaradılan məntəqədə yaralıların qəbulu və təxliyyəsi təmin olunub. Düşmən kəndi müxtəlif istiqamətlərdən atəş altında saxlayıb. Noyabrın 9-da kənddə yaxınlığına düşən top mərmisinin partlayışı nəticəsində qəlpələr döyüşçünün bədəninin ayrı-ayrı nahiyələrini yaralayıb. Müdafiə Nazirliyinin feldşer hərbi qulluqçusu ona ilk tibbi yardım göstərib. Noyabrın 10-da döyüşlər dayandırılıb, o, Hadrutdakı tibb məntəqəsinə, oradan isə Füzuli Rayon Mərkəzi Xəstəxanasına çatdırılıb.

Ağcabədi Rayon Mərkəzi Xəstəxanası və “Modern” qospitalda onun üzərində cərrahiyyə əməliyyatları aparılıb. Daxili Qoşunların Hərbi Qospitalında müalicə olunub. Ona “partlayış travması, sol kürək, döş qəfəsinin sol yarısının, sol saidin, əlin, belin sağ yarısının və sol budun yumşaq toxumalarının çoxsaylı qəlpə yaralanması, çıxarılmamış metal qəlpələr, dəri çapıqları, sol mil sümüyü başının açıq çoxqəlpəli sınığı, sümük defekti, sol dirsək oynağının açıcı-bükücü kontrakturası, sol dirsək sinirinin postravmatik neyropatiyası, sol yuxarı ətraf və sol əlin qısa əzələlərinin atrofiyası, sol yuxarı ətrafın funksiyasının mühüm dərəcədə pozulması” diaqnozu qoyulub. Hərbi xidmətə yararsız hesab edilərək istefaya buraxılıb.

Azərbaycan Respublikası Prezidentinin imzaladığı 25.12.2020-ci il tarixli müvafiq sərəncamla əsgər X.Səfərli “Füzulinin azad olunmasına görə” medalı ilə təltif edilib.

Xəyalın birinci nikahdan bir qız övladı var. Ön cəbhədə ən çox onu düşünüb. Müharibədən sonra yeni ailə qurub. Həyat yoldaşı Vəfa Məmmədova Ağdam rayonunun Mərzili kəndindən məcburi köçkündür. Xəyalın sağlamlığının bərpası üçün öz qayğısını əsirgəməyib. Bu gün doğmaları, silahdaşları, müəllimləri və məşqçiləri onunla qürur duyurlar. Onların mənəvi dəstəyi qazi üçün vacib amildir.

Ölkəmizə sənin kimi layiqli vətəndaş olmaq başucalığıdır, Xəyal!

**Yalçın Abbasov**

4 - 2_Layout 1 15.11.2021 11:21 Page 1



# DAXİLİ QOŞUNLARDA XİDMƏTƏ YENİ QƏBUL EDİLMİŞ ÇAĞIRIŞÇILARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

Noyabrın 10-da Daxili Qoşunların Bakı şəhərində yerləşən "N" saylı hərbi hissəsində xidmətə yeni qəbul edilmiş çağırışçıların hərbi andiçmə mərasimi keçirilib.

Mərasimdə daxili qoşunlar komandanının 1-ci müavini-qərargah rəisi general-mayor Tofiq Hüseynov iştirak edib.

Tədbir Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsinin yad edilməsi ilə başlayıb. Nümunəvi göstərici hərbi orkestrin müşayiəti ilə Dövlət Himni ifa edilib.

Əsgərlər hərbi and içərək, Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü və müstəqilliyini şərəflə qoruyacaqlarına, bundan ötrü canlarını belə əsirgəməyəcəklərinə söz veriblər.

Tədbirdə çıxış edən hərbi hissə komandiri polkovnik Telman Həsənov əsgərlərə hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə xidmət edən hərbi qulluqçuların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Konstitusiyamızın müvafiq maddələrinin tələblərini xatırladıb.

Sonra daxili işlər nazirinin müavini - daxili qoşunların komandanının hərbi andiçmə münasibətilə əsgərlərə ünvanladığı təbriki çatdırılıb.

Təbrikdə hərbi andı qəbul edən hərbi qulluqçuların qoşunların bütün şəxsi heyəti kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıdıqları, bundan əlavə, Daxili Qoşunların möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərilən diqqət və qayğının sıralarımızda xidmət edən hər bir gənci öz vəzifələrini mətinliklə yerinə yetirməyə ruhlandırdığı da vurğulanıb.



Qeyd olunub ki, hərbi and içərək respublikamızın müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü göz bəbəyi kimi qorumağa söz verməklə, hər bir hərbi qulluqçu bu müqəddəs andın mənasını tam olaraq dərk etməlidir.

Təbrikdə, həmçinin, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində Daxili Qoşunların şəxsi heyətinin fədakarlıq göstərərək, şərəfli döyüş yolu keçdiyi də bildirilib.

Sıralarımıza daxil olan hər bir hərbi qulluqçunun Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi anda və nizamnamələrə sadiq qalacağına, dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurlar qazanacağına əminlik ifadə olunub.

Təntənəli gün münasibətilə çıxış edənlər əsgərləri səmimi qəlbdən təbrik edərək, onları cəsur və intizamlı olmağa, hərbi bilikləri öyrənməyə, daim Vətənin müdafiəsinə hazır olmağa səsləyiblər.

Mərasim şəxsi heyətin təntənəli keçidi ilə başa çatıb.

**Mətbuat xidməti**

NÜMUNƏVİ XİDMƏT

# DÖYÜŞ XİDMƏTİNDƏ AYIQ-SAYIQ ƏSGƏR

Daxili Qoşunların 25033 saylı hərbi hissəsinin ayrı yerləşən patrul taborunun hərbi intizamı ilə fərqlənən hərbi qulluqçularından biri komendant taqımında xidmət edən müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Rövşən Rzalıdır. O, 2000-ci il fevral ayının 27-də Sumqayıt şəhərində doğulub. Yardımlı rayonunda yerləşən tam orta məktəbdə oxuyub. 2017-2021-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində nəqliyyat tikintisi mühəndisi ixtisası üzrə ali təhsil alıb. Həmin illərdə texnik və informasiya texnologiyaları mütəxəssisi kimi fəaliyyət göstərib. Uşaq yaşlarından idmanın karate növü ilə məşğul olan Rövşən 2014-cü ildə respublika birinciliyində üçüncü yerə layiq görülüb.



O, 2021-ci ilin iyul ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda komendant taqımının atıcıdır.

Komendant taqımının komandiri leytenant Xalid Xəmmədli əsgər R.Rzalını nümunəvi hərbi qulluqçu kimi xarakterizə etdi, onun verilən tapşırıqları icrasına son dərəcə ciddi və məsuliyyətlə yanaşdığını, daim əzmkarlığı, ayıq-sayıqlığı ilə fərqləndiyini və hərbi nizamnamələrin tələblərinə riayət etdiyini söylədi.

Əsgər R.Rzalı vətənpərvərlik əqidəsinə sadiqdir. Komendant taqımında xidmət etməkdən qürur duyur.

Qeyd edək ki, hərbi qulluqçumuzun qardaşı əsgər Elşən Rzalı da onunla birlikdə komendant taqımında xidmət edir.

**25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# BÖLMƏ DÖYÜŞ HAZIRLIĞINI YÜKSƏK SƏVİYYƏDƏ QORUYUB SAXLAYIR

12318 saylı hərbi hissənin patrul taboru yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrdən biridir. Tabor komandirinin müavini-qərargah rəisi kapitan Sərxan Qafarov şəxsi heyətin dislokasiya rayonunda cəlb olunduğu xidmətlərdən danışarkən bildirdi ki, patrul xidmətinin əsas məqsədi ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi, eləcə də cinayətlərin və digər hüquq pozuntularının qarşısını almaqdır. O, bölmənin ümumi fəaliyyətini müsbət qiymətləndirərək, əldə olunan uğurda şəxsi heyətin mənəvi-psixoloji durumunun yüksək olmasının da mühüm amillərdən biri kimi qeyd etdi. Bu istiqamətdə görülən işlərdə tabor komandirinin tərbiyə işləri üzrə müavini mayor Elnur Haqverdiyevin fəaliyyətini xüsusilə vurğuladı. Onun funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşdığını, şəxsi heyətin müəyyən edilmiş vəzifələri vaxtında və keyfiyyətlə icra etməsi, həmçinin, ictimai-siyasi biliyinin və dünyagörüşünün artırılması üçün səylə çalışdığını bildirdi.




Komandir müavini bölmənin şəxsi heyətinin yerinə yetirdiyi xidmətin məsuliyyəti barədə danışarkən söylədi ki, xidmətə cəlb olunmamışdan öncə hərbi qulluqçularla söhbətlər aparılır, onlar təlimatlandırılır, sağlamlıq və mənəvi-psixoloji durumları, o cümlədən, zahiri görünüşləri, hər birinin səliqə-sahmanı yoxlanılır. Yerinə yetirəcəkləri xidmətin məsuliyyəti bir daha izah olunur. Sonra şəxsi heyət təyinatına uyğun olaraq, xidmətə başlayır.

Onun sözlərinə görə, patrul bölüyünün şəxsi heyəti həvalə olunmuş tapşırıqları uğurla icra edir. Bu da onların bilik və bacarıqlarının yüksək səviyyədə olmasından və daima öz üzərlərində çalışmalarından xəbər verir. Komandir müavini bölmədə yüksək döyüş hazırlığının, nizam-intizamın əldə olunmasının vacibliyini qeyd edərək, praktiki və nəzəri məşğələlərdə mövzuların keyfiyyətlə tədrisinin və hər bir hərbi qulluqçu tərəfindən dərindən mənimsənilməsinin qabaqcıl təcrübənin əldə olunmasına təkan verdiyini söylədi.

Kapitan S.Qafarov nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçulardan əsgərlər Valeh Nərimanzadə, Əliyar Mahmudov və Turan Mustafayevin adlarını qeyd etməyi unutmadı.

**kapitan Xədicə Hacızadə**

# HƏRBİ XƏBƏRLƏR

-YENİLİKLƏR-

## Nigeriya Türkiyədən patrul gəmiləri alacaq



Türkiyənin "Dearsan" Tərsanəsi Nigeriya Hərbi Dəniz Qüvvələrinə OPV 76 tipli dəniz patrul gəmisinin ixracı üçün müqavilə imzalayıb.

"Poliqon" xəbər verir ki, "Dearsan" Tərsanəsi Nigeriya Hərbi Dəniz Qüvvələri ilə imzalanmış müqavilə çərçivəsində 2 ədəd 76 metrlik OPV 76 dəniz patrul gəmisi inşa edəcək.

Konfiqurasiya edilən OPV-lərin dizayn və inşa işləri bütünlüklə "Dearsan" daxilində həyata keçiriləcək, həmçinin, gəmilər yerli sistemlərlə təchiz olunacaq.

## Polşa ABŞ istehsalı olan zirehli maşınlar alır

Polşa hərbçiləri Amerika istehsalı olan zirehli maşınlarla təmin olunacaqlar. Ordu.az xəbər verir ki, bu barədə Polşanın milli müdafiə naziri məlumat yayıb.



Məlumatda bildirilir ki, ABŞ 2022-ci ildə Polşa tərəfinə 300 işlənmiş "Cougar" avtomobili verəcək. Müqavilənin məbləği açıqlanmır.

Mina əleyhinə müdafiəsi olan zirehli maşınlar partlayış dalğasının enerjisini yayan xüsusi altlıqla təchiz olunub.

# YEMƏKXANADA SANİTAR QAYDALARA RİAYƏT OLUNUR

Hərbi qulluqçuların sağlamlığının qorunması 25033 saylı hərbi hissə komandanlığının nəzarətindədir. Bu baxımdan şəxsi heyətin kalorili, keyfiyyətli yeməklərlə qidalanması vacibdir.

Hərbi hissənin ayrı yerləşən patrul taborunun təminat bölüyünün təminat taqımında ərzaq anbarı rəisi baş gizir Rövşən Dövlətov qeyd etdi ki, şəxsi heyətin qidalanması müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edilir. Xörəklərin keyfiyyətlə hazırlanması Daxili Qoşunlar və hərbi hissə komandanlığının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Ona görə də hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün zəruri tədbirlər görülür.




Şəxsi heyətin qidalanması gündəlik olaraq üç dəfə həyata keçirilir və bu zaman kalorinin düzgün bölüşdürülməsinə xüsusi diqqət yetirilir. Həmçinin, yeməkxanada bütün sanitar qaydalara riayət olunur. Yeməkxananın döşəməsi xlorlu məhlulla hər gün silinir və dezinfeksiya olunur. Qidalanmadan sonra bütün qablar iki faizli məhlulla yuyulur. Eləcə də qidalar şəxsi heyətə verilmədən öncə keyfiyyəti həkim tərəfindən yoxlanılır. Hərbi qulluqçular yeməkxanaya daxil olarkən onların hər birinin temperaturu ölçülür və sosial məsafə qorunub saxlanılır.

Baş gizir R.Dövlətov hərbi qulluqçuların gündəlik qida rasionu barədə danışarkən söylədi ki, əsasən milli təamlar hazırlanır. Gündəlik olaraq mövsümi salatlar və meyvə şirələri də qida rasionuna daxildir. Xüsusilə qış mövsümü ilə əlaqədar olaraq, qida rasionuna soğan, sarımsaq kimi faydalı tərəvəzlər əlavə olunur.

Anbar rəisi görülən işlərdə təminat manqasının komandiri-baş aşpaz çavuş Mirqələm Mirkazımlının, aşpaz-təlimatçı baş çavuş Loğman Soltanovun, ixtisas kursu keçmiş aşpaz əsgər İsmayıl Məmmədovun, mülki işçi-aşpazlardan Sevər Qasımovanın və Minarə Məmmədovanın fəaliyyətini xüsusilə vurğulayaraq, onların qoyulan tapşırıqların öhdəsindən layiqincə gəldiklərini, öz vəzifə borclarına vicdanla yanaşdıqlarını dedi.

**kapitan Xədicə Hacızadə**

*Həkim məsləhəti*

# EVDƏ COVID-19 XƏSTƏSİ VARSA, YOLUXMA RİSKİNİ NECƏ AZALTMAQ OLAR?

İnsan orqanizmi immun sisteminin işi sayəsində COVID-19-un öhdəsindən gələ bilər və ya yoluxmuş hissəciklərin yalnız çox kiçik bir hissəsini aldıqda infeksiyanı asanlıqla keçirə bilər. Bu səbəbdən yeni yoluxmuş insanın qaldığı evdə digərlərinin maska taxması lazımdır. Maskanı tez-tez dəyişdirmək vacibdir. O zaman biz ailə üzvlərini daha böyük əminliklə infeksiyadan qoruya bilərik.



AZƏRTAC "Medikforum"a istinadla infeksiyanın profilaktikasının digər tədbirlərindən bəhs edir.

Pəncərələri açaraq mənzili mümkün qədər daha tez-tez havalandırmaq lazımdır, təmiz hava axını otaqdakı virus hissəciklərinin konsentrasiyasını azaldır.

Müntəzəm olaraq otağı nəm parça ilə silmək, evin bütün səthlərini, xüsusən də ən çox toxunulan səthləri xlor tərkibli vasitə ilə təmizləmək məqsədəuyğundur.

## Allah rəhmət eləsin

16077 saylı hərbi hissənin komandanlığı mayor Elşən Cumiyevə **anasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.

Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.

Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565

Sayı 3000